*Abbasov Vahid Hacıbəy oğlu,*
*iqtisad elmləri doktoru, professor,*
*Email: vahid.abbasov.56@mail.ru*
*Şükürova Emilya Elşad qızı, dissertant,*
*Bakı Dövlət Universiteti,*
*Email: shukurova0701@mail.ru*

# AZƏRBAYCANDA KONSERV SƏNAYESİ MƏHSULLARININ İSTEHSALI VƏ TİCARƏTİNDƏ ƏSAS PRİORİTETLƏR

Konserv sənayesi qida sənayesinin əsas sahələrindən biri olaraq bütövlükdə maddi istehsal sferasına aiddir. Konserv sənayesinin inkişafı kənd təsərrüfatında istehsal olunan meyvə, giləmeyvə, tərəvəzlərin tədarükündə, ilkin emalında və təkrar istehsalında mühüm rol oynayaraq, mövsümi vaxtlarda adı çəkilən məhsulların itkiyə çevrilməsinin qarşısının alınmasında, əhalinin məşğulluğunun təmin edilməsində, gəlirliyinin və istehlak tələbatlarının ödənilməsində mühüm rol oynamaqdadır. Bu sənaye istehsalının fəaliyyəti qida məhsullarına olan tələbatın yerli resurslar hesabına ödənilməsi və iqtisadi inkişafın təmin edilməsi, iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması, əhalinin ərzaq təhlükəsizliyinin təmin olunmasında dövlətin iqtisadi siyasətinin başlıca istiqamətlərindən birini təşkil edərək, ictimai faydalılıq baxımından da xüsusi əhəmiyyət kəsb edir. Bu sahədə görülən işlərin genişləndirilməsi və nəzərdə tutulan digər tədbirlər ölkə əhalisinin zəruri həcmdə və keyfiyyətdə ərzaq məhsulları ilə daimi olaraq, müəyyən olunmuş normalara əsaslanmaqla təmin edilməsinə yönəldilməkdədir. Müasir dövrdə konserv sənayesi elmin və texnologiyaların inkişafı ilə əlaqədar olan innovasiyaların müxtəlif konservləşdirmə üsullarında istifadəsinə nail olunması sayəsində, geniş çeşiddə konservləşdirilmiş ərzaq məhsulları istehsal edir, bunların çeşidini ilbəil artırır, təkmilləşdirir və keyfiyyətini yaxşılaşdırır.




***Şəkil 1. Meyvə və tərəvəz konservlərinin istehsalı, min ton***

Kənd təsərrüfatı ilə emal sənayesi müəssisələrinin aqrar-sənaye müəssisələri və aqrar-sənaye kombinatları formasında inteqrasiyalaşmış birgə fəaliyyətləri kənd təsərrüfatı və sənayenin bir-birinə yaxın olan, ardıcıl davam edən fəaliyyət sahələrini birləşdirərək, son məhsula olan bazar tələbinin ödənilməsinə şərait yaradır. Bu müəs-sisələrdə kənd təsərrüfatı məhsulları emal sənayesinin xammalı kimi istifadə olunur, tullantılar isə yem kimi, yaxud da digər istehsal sahələri üçün təkrar xammal kimi istifadə olunur. Bunların da nəticəsi olaraq kəndli təsərrüfatları və emal müəssisələri pərakəndə ticarət fəaliyyətinin birbaşa iştirakçılarına çevrilərək, bazarda yüksələn tələb qiymətlərindən yararlanaraq əlavə gəlir əldə etmək imkanları qazana bilərlər. Qeyd olunan stimulların nəticəsidir ki, ölkə üzrə konservləşdirilmiş tərəvəz və meyvə məhsullarının həcmi son 16 ildə 3,7 dəfəyə qədər artaraq 200 min tona çatmaqdadır (Şəkil 1).

Buna baxmayaraq, konservləşdirilmiş tərəvəz və meyvə məhsullarına olan tələbatın hələ tam ödənilməməsi sayəsində ölkəyə idxal olunan eyni adlı məhsulların həcmində dinamik artımlar müşahidə olunmaqdadır. Aşağıdaki cədvəldə 1994-2020-ci illərdə meyvə-tərəvəz konservlərinin idxalı 20 dəfəyə qədər artaraq, 20 min tona çatmışdır. Meyvə-tərəvəz şirələrinin idxalı isə 10,6 dəfə, 2001-2007-ci illərdə isə 42,1 dəfəyə qədər artsa da, sonrakı 2007-2020-ci illərdə kəskin azalmalarla müşayiət olunmuşdur (Şəkil 2).




***Şəkil 2. Meyvə-tərəvəz konservləri və şirələrin idxalı, ton***

Bütün bunlarla yanaşı, meyvə-tərəvəz konservlərinin və şirələrinin ixracında da oxşar tendensiyalar yaşanmaqdadır. Belə ki, müqayisə olunan 1994-2020-ci illər ərzində meyvə-tərəvəz konservlərinin ixracı 1000 tondan 7000 min tona, yaxud 7 dəfə artsa da, meyvə-tərəvəz şirələrinin ixracında fərqli dinamikalar müşahidə olunmaq-dadır (6). 1994-2000-ci illərlə müqayisədə 2007-ci ildə meyvə-tərəvəz şirələrinin ixracı 6,3-20,5 dəfə artsa da, 2008-2020-ci illərdə ilkin səviyyələrə qədər azalmışdır ki, bunu ölkədə aparılan sosial-iqtisadi tədbirlər nəticəsində əhalinin gəlirlərinin və buna uyğun olaraq da, tələbatların artması ilə izah etmək olar (Şəkil 2).

Əhalinin ərzaq və qida məhsullarına olan tələbatının daha səmərəli ödənilməsində konserv sənayesi məhsullarının da həcmi artmaqdadır. 2020-ci ilin statistik məlumatlarına əsasən il ərzində orta hesabla əhalinin hər nəfərinə 17,1 kiloqram meyvə və tərəvəz konservləri, 2,7 kiloqrama qədər meyvə və tərəvəz şirələri istehlak olun-

muşdur ki, 2012-ci ilin statistik göstəriciləri ilə müqayisədə meyvə və tərəvəz konservlərinin həcmi 18,7% artsa da, meyvə-tərəvəz şirələrində artım müşahidə olunmamışdır (1).

Konserv sənayesində innovasiyalı inkişafa əsaslanan, rəqabətqabiliyyətli qida məhsullarının kəmiyyətinə və keyfiyyətinə təsir göstərən amillər müxtəlifdir. Bu amillərə xammallar və materiallardan səmərəli istifadə, istehsalın texniki və texnoloji səviyyəsinin yüksəldilməsi, keyfiyyətə nəzarət məqsədi ilə istifadə edilən texniki-iqtisadi vasitələr, avadanlıq və qurğuların daima yeniləşdirilməsi kimi amillər aid edilə bilər. Bu amillər həm də insan amilinin fəaliyyətindən, onun öz funksiyalarını yerinə yetirmə qabiliyyətindən və stimullaşdırıcı tədbirlərdən istifadə kimi təşkilati-iqtisadi münasibətlərdən asılı ola bilər ki, bu da konserv sənayesi məhsullarının keyfiyyətinin yüksəldilməsinə imkan verən idarəetmə sisteminin təkmilləşdirilməsi, istehsalın strukturunun və tullantılardan istifadə sayəsində tətbiq oluna biləcək texnoloji bazasının yeniləşdirilməsi kimi strateji hədəflərin müəyyənləşdirilməsindən ibarət olması zəruri hesab edilə bilər.

Rəqabətqabiliyyətli və beynəlxalq standartlara uyğun məhsul istehsalına nail olunması, istehsal olunan məhsullara daxili və xarici tələbin formalaşdırılması rəqib şirkətlərin təklif etdiyi məhsullardan daha üstün olmasına və nəticədə, müəssisəyə daha çox mənfəət qazandırmasına xidmət edəcəkdir. Bu baxımdan, konserv sənayesi müəssisələri tərəfindən istehsal olunan məhsullar üçün keyfiyyət standartları anlayışının əhəmiyyəti yüksək qiymətləndiriləcəkdir.




***Şəkil 3. Meyvə-tərəvəz konservləri və şirələrin ixracı, ton***

Konserv sənayesi məhsullarının istehsalı və ticarətinin strukturunda əldə olunacaq müsbət dəyişiklər qeyri-neft sektorunda baş verəcək perspektiv inkişaf ssenarilərinin konkretləşdirilməsi üçün əsas prioritetləri labüdləşdirir. Konserv sənayesinin inkişaf yollarının müəyyən edilməsində sənaye istehsalının dayanıqlı və yüksək artım templərinin təmin edilməsi, istehsal strukturunun şaxələndirilməsi, səmərəliliyinin artırılması kənd təsərrüfatı və sənaye istehsalı sferasında sahələrarası texnoloji-iqtisadi əlaqələrinin təkmilləşdirilməsi üçün əsas hədəflərdən birini təşkil etməkdədir. İstehsal

və ticarətin strukturunda əldə olunacaq müsbət meyllər əsas istehsal fondlarının fiziki və mənəvi aşınmasının aradan qaldırılmasından, istehsal olunan məhsulun rəqabət-qabiliyyətliliyindən, investisiya və innovasiya fəallığının artırılmasından, istehsal müəssisələrinin daha sürətli inkişafından və fəaliyyət növlərinin stimullaşdırılmasından ibarət olacaqdır.

**İstifadə olunmuş ədəbiyyat:**


1. Dövlət Statistika Komitəsi, Azərbaycanın ərzaq balansları. Sənaye emalından keçmiş əsas növ ərzaq məhsullarının balansları. https://www.stat.gov.az/source/food_balances/
2. Kərimli I.A., Süleymanov N.M., Milli iqtisadiyyatın əsasları. Bakı, 2001, 308 s.
3. Abbasov V.H., Qorçiyeva T.K. Qida sənayesi sahələrinin inkişaf prioritetləri, Aqrar tədqiqatlar mərkəzi, Kənd təsərrüfatının iqtisadiyyatı jurnalı, № 1, 2020.
4. Azərbaycanın sənayesi. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Bakı, 2019.
5. Xəlilov H.A. Milli ərzaq təhlükəsizliyi: bazar transformasiyaları və iqtisadi qloballaşma amilləri. Bakı, 2001, 176 s.
6. https://www.stat.gov.az/source/industry/
7. Azər Qurbanzadə. Ərzaq kompleksinin modernizasiyası və dayanıqlı inkişaf problemləri. Bakı, “Kooperasiya” nəşriyyatı, 2017, 191 səh.